# Avtomobillərin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb





Ekoaksiyanın iştirakçıları martın 14-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Xankəndidən Laçına doğru hərəkət edən BQXK-ya məxsus səkkiz minik və altı yük avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

* * *

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus 10 təminat-təchizat avtomobili aksiya ərazisindən maneəsiz keçib.

* * *

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus 12 təminat-təchizat və beş minik avtomobili aksiya ərazisindən maneəsiz keçib.

* * *

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus 3 təminat və 6 minik avtomobili aksiya ərazisindən maneəsiz keçib. Bundan əlavə, sülhməramlıların 29 təminat və 5 minik avtomobili də Xankəndiyə gedib.

***AZƏRTAC***

Azərbaycan.- 2023.-15 mart.- S.12.